UOT 37.01

***Aygün Səlim qızı Zamanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ŞAGİRDLƏRİN LİNQVİSTİK BACARIQLARININ İNKİŞAFI İLƏ BAĞLI MƏTN ÜZƏRİNDƏ İŞ PROBLEMİNİN METODİK ƏDƏBİYYATDA QOYULUŞU

***Айгюн Селим гызы Заманова***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПОСТАНОВКА В МЕТОДИЧЕСКОЙ ЛИТЕРАТУРЕ ПРОБЛЕМЫ РАБОТЫ НАД ТЕКСТОМ, СВЯЗАННОЙ С РАЗВИТИЕМ ЛИНГВИСТИЧЕСКИХ УМЕНИЙ УЧАЩИХСЯ

***Aygun Selim Zamanova***
*Azerbaijan State Pedagogical University*

# STATEMENT OF THE PROBLEM OF WORKING ON THE TEXT IN THE METHODOLOGICAL LITERATURE RELATED TO THE DEVELOPMENT OF LINGUISTIC SKILLS OF STUDENTS

**Xülasə:** Ümumtəhsil məktəblərində Azərbaycan dili təlimi şagirdlərin nitq və təfəkkürünün inkişafını həyata keçirir. Bu prosesdə tətbiq edilən vasitələrdən biri də mətn üzərində aparılan linqvistik xarakterli tapşırıqlardır. Məqalədə metodist alimlərin problemə yanaşma və onun həlli yolları ilə bağlı mülahizələri təhlil edilmişdir.
***Açar sözlər:*** *mətn, linqvistik bacarıqlar, dil duyumu, tənqidi təfəkkür, metodik ədəbiyyat*

**Резюме:** Обучение азербайджанскому языку в общеобразовательных школах осуществляет развитие речи и мышления учащихся. Одним из средств, используемых в этом процессе, являются задания лингвистического характера, проводимые над текстом. В статье анализируются подходы ученых-методистов к данной проблеме и пути ее решения.
***Ключевые слова:*** *текст, лингвистические умения, языковое чутьё, критическое мышление, методическая литература*

**Summary:** Teaching of Azerbaijani language in general schools carries out the development of speech and thinking of students. One of the means used in this process is linguistic nature of the tasks conducted over the text. The article analyzes the approaches of scientists and methodologists to this problem and ways to solve it.
***Keywords:*** *text, linguistic skills, language sense, critical thinking, methodical literature*

**Məsələnin qoyuluşu.** Ümumtəhsil məktəb şagirdlərinin tənqidi təfəkkürünün formalaşmasında Azərbaycan dili dərsləri mühüm yer tutur. Şagirdlərin nitq vərdişlərinin inkişafı ilə müvazi şəkildə həyata keçirilməklə reallaşdırılan bu problemin səmərəli həllində mətn üzərində aparılan işlər mühüm əhəmiyyət kəsb edir.

**Məqsəd** Azərbaycan dilinin təlimi metodikasında problemin araşdırılma səviyyəsini öyrənmək və şagirdlərin linqvistik bacarıqlarının inkişafında mətn üzərində işlərin rolunu aydınlaşdırmaqdır.

Azərbaycan ümumtəhsil məktəbləri yeni bir mərhələyə – inkişafetdirici təlim mərhələsinə qədəm qoymuşdur. Bu dönəmin başlıca xüsusiyyəti təlim prosesini şagirdlərin idraki fəallığı üzərində qurmaq kimi müəyyənləşdirilə bilər. Yeni pedaqoji təfəkkür konsepsiyasına əsaslanan təhsil quruculuğun mahiyyətində problemlərə müasir baxış, müasir yanaşma durur. Bildi-

yimiz kimi, təlimin əsas obyekti dərsdir və bütün baxışlar məhz dərsin təşkilinə, bilik, bacarıqların formalaşmasında istifadə edilən metodların seçimi və bu zəmində müəllim – şagird, şagird – şagird münasibətlərinin anlaşıqlı həlli problemlərinə yönəlmişdir. Ə. Əlizadənin fikrincə, ənənəvi pedaqoji sistemlə yeni pedaqoji təfəkkür arasında fərq yalnız “dərs məkanında” açıqlana bilər [5, s. 34]. Görkəmli psixoloq fikrini bir az da konkretləşdirərək yazır: “Müasir dərs” haqqında təsəvvürlərin formalaşması yeni pedaqoji təfəkkürün bərqərar olmasında həlledici əhəmiyyətə malik olmuşdur” [5, s. 34]. Müasir dərs deyildikdə, ilk növbədə, fəal öyrənmə prosesi nəzərdə tutulur. Pedaqoji araşdırmalarda fəal öyrənmə şagirdləri idraki fəaliyyətə cəlb etməklə problemlərin həlli yollarını axtarıcılıq yolu ilə tapmağa, yeni ideyalar irəli sürməyə, çoxsaylı məqsədləri şagird kollektivi ilə birgə yerinə yetirməyə həvəsləndirən proses kimi şərh olunur.

Azərbaycan təhsilinin konseptual problemlərini elmi-nəzəri baxımdan təhlilə cəlb edib münasibət bildirən prof. A.O. Mehrabov fəal öyrənmə prosesinin incəliklərinə vararaq yazır: “Bu halda öyrənmənin mərkəzində fəal şagird dayanır, proses müəllim və şagirdin qarşılıqlı münasibətləri, şagird və mənimsənilməli məzmun, şagird və onun əhatəsi kontekstində araşdırılır. Şagird onun mənasını başa düşür, dərk edir, hafizə süzgəcindən keçirir, öyrəndikləri onun üçün böyük məna kəsb edir. Belə öyrənmə mexaniki hafizəyə deyil, nəzəri (tənqidi) təfəkkürə istinad edir və şagirdin idrak fəallığının yüksəlməsinin təminatçısı olur” [12, s. 155].

Görünür, elə buna görə də Ə.X. Paşayev və F.A.Rüstəmov müasir dərsə verilən tələblər sırasında “şagirdlərin maraq, meyil və tələbatlarını nəzərə almaqla onların produktiv (məhsuldar) idraki fəaliyyəti üçün lazımi şəraiti təmin etmək” tələbinə xüsusi önəm vermişlər [13, s. 211]. Fəal öyrənmə bilik və bacarıqların şagirdləri axtarıcılığa təhrik edən, onlarda yeni bilik qazanmaq üçün motivasiya yaradan tədqiqat sualından başlayıb, problemin həlli yollarını müşahidə, müqayisə, müzakirə prosesində tapmaqla davam edən və müvafiq mülahizələr sürməklə yekunlaşan dərs prosesində həyata keçirilə bilər. Müasir dərsdə müəllimin funksiyası tamamilə dəyişmiş olur. O, biliklərin ötürücüsü rolunda deyil, biliklərin əldə olunmasında şagirdləri məqsədyönlü şəkildə fəaliyyətlərə istiqamətləndirən təşkilatçı rolunda çıxış edir.

İnkişafetdirici təlimi “fəal (interaktiv) təlim” adı altında təqdim edən Z. Veysova ona məxsus xüsusiyyətləri: müəllim tərəfindən şüurlu şəkildə idraki problem situasiyanın yaradılması; bu prosesdə şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması; yeni biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şəraitin yaradılması kimi 3 qrupda səciyyələndirir. O, fikirlərini bir qədər də dəqiqləşdirərək yazır: “Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qavranılmasına yönəlib. Bu zaman şagirdlər müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yadda qalan, ən vacib təlim materiallarının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqəsini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər” [15, s. 11].

Deyilənlərdən aydın olur ki, müasir dərs şagirdləri tənqidi düşünməyə, müstəqil qərarlar verməyə və onları tətbiq etməyə alışdırmalıdır. Bu məqamda problemi daha dərindən və müasir pedaqoji, psixoloji yanaşmalara istinadən araşdıran A.Krouford və onun həmfikirlərinin mülahizələrini eynilə vermək istərdik: “Tənqidi düşünə bilən şagirdlər öyrənməkdən zövq alırlar. Öhdələrinə götürdükləri ən çətin zehni tapşırıqlarda belə bunun bir özünü inkişaf etdirmə və öyrənmə fürsəti olduğunun fərqinə varırlar. Belə şagirdlər həm sinif şəraitində, həm də həyatda tənqidi düşünmək bacarıqlarından istifadə etmək fürsətlərini dəyərləndirirlər və bu bacarıqlardan həvəslə istifadə edirlər. Müəllim üçün də öyrənmə təcrübəsini maraqlı və cəlbedici edənlər də belə şagirdlərdir” [10, s. 11].

Araşdırma göstərir ki, dil təlimində şagirdlərin tənqidi təfəkkürünün və mədəni nitq bacarıqlarının inkişafı fikri əməliyyatların hansı materiallar üzərində və necə təşkilindən asılıdır. Ana dili təlimində mətn nümunələrinin linqvistik biliklərlə əlaqələndirilməsi problemi istər

Azərbaycan, istərsə də rus metodistlərinin maraq dairəsində olmuş və bu gün də öz aktuallığını saxlamaqdadır. Böyük rus pedaqoqu K.D. Uşinski "Qrammatikanın sistematik öyrənilməsi lazımdırmı?" sualına cavab axtararkən bunu zəruri şərt kimi irəli sürərək yazırdı: "Zəngin söz və şəkil ehtiyatına, onları işlətməkdə inkişaf etmiş vərdişə malik olan şagird qrammatikanı müntəzəm öyrənməklə bunların hamısını bir sistemdə birləşdirir. Bunun faydası ondadır ki, o, uşağın şüurunu inkişaf etdirir, öyrənmiş olduğunu möhkəmlədir, uşağı bir tərəfdən ruhi məsələlər üzərində müşahidə etməyə, o biri tərəfdən məntiqi sistemə, ilk elmi sistemə alışdırır" [14, s. 145]. Göründüyü kimi, böyük pedaqoq mətnin düzgün seçimini şagirdin ruhi inkişafı ilə bağlayırsa, qrammatik, yəni linqvistik biliklərin bir sistem daxilində verilməsini şüurunun inkişafı ilə əlaqələndirir.

Azərbaycan dili təlimində nitq və təfəkkürün qarşılıqlı əlaqədə götürülməsi problemi, əslində, mətn üzərində işin necə təşkili ilə birbaşa bağlıdır və bu kontekstdə söylənilmiş mülahizələrə nəzər yetirilməsi tədqiqatın hansı məzmunda aparılmasına istiqamət verir. B. Əhmədov şagirdlərin dil və təfəkkürünün, dil və nitqinin qarşılıqlı əlaqədə inkişaf etdirilməsinin nəzəri və praktik məsələlərini şərh edərkən təlim prosesində metod və priyomların düzgün tətbiqini vacib sayırdı. Həmin priyomlar sırasında isə "şagirdin nitqini zənginləşdirmək üçün mütaliəyə geniş yer vermək, uşaqların bədii (və başqa) əsərlərdən atalar sözləri seçmək, məsəllər, tapmacalar və s. seçməsini, bunları əzbərləməsini təşkil etmək priyomu"na üstünlük verirdi. O, bunu bir tərəfdən şagirdin yeni dil vahidlərinə yiyələnməsi və nitqində istifadə etməsi, digər tərəfdən isə eyni fikri müxtəlif formada verməsi baxımından faydalı sayırdı [3, s. 91]. Metodist-alim bir dil vahidi kimi mətn üzərində işin təşkili ilə bağlı məsələləri ayrıca tədqiqat obyekti olaraq araşdırmasa da, Azərbaycan dili təlimində istifadə edilən praktik metodlardan danışarkən oxunmuş mətnin məzmununu müxtəlif şəkildə (geniş, yığcam, müəyyən epizod üzrə və s.) danışdırmaq, şagirdlərin şahidi olduqları, müşahidə etdikləri müəyyən məsələlərə dair məlumatlarını dinləyib, nöqsanları islah etmək məqsədilə düzgün istiqamət vermək kimi iş üsullarından istifadəni faydalı bilir. O, bir qayda olaraq, mətnin təlimi əhəmiyyətini şagirdlərin rabitəli nitqini inkişaf etdirməkdə görür və təlim prosesində aşağıdakıları nəzərə almağı lazım bilir:

1. Şagirdlər mətni təşkil edən ayrı-ayrı cümlələr, abzas və komponentlər arasındakı əlaqələri dərk etməli, onun strukturunu başa düşməlidirlər ki, inşa və ifadə yazmaq bacarıqları təkmilləşsin.

2. Mətnin məzmun və forması arasındakı vəhdəti başa salmaqla şagirdlərin nitq vərdişlərini daha səmərəli şəkildə qurmaq mümkün olur [3, s. 105].

B. Əhmədov şagirdlərin rabitəli nitqinin inkişaf etdirilməsində mətni təşkil edən cümlələr arasındakı məna və qrammatik əlaqələrin gözlənilməsi üçün linqvistik biliklərin ardıcıl mənimsədilməsinə böyük əhəmiyyət verərək yazır ki, "nitqdəki rabitəsizliyin kökünü mənimsənilmiş bilikdəki əlaqəsizlikdə axtarmaq lazımdır" [3, s. 106]. O, mətni təşkil edən cümlə və -abzaslar arasındakı məna və struktur bağlılığının düzgün qurulmasını həm nitq fəaliyyəti, həm də təfəkkürün inkişafı ilə əlaqədə izah edir. Bütün deyilənlərdən belə aydın olur ki, B.Əhmədov şagirdlərin mətn qurmaq bacarıqlarının formalaşmasında dilin daxili quruluşuna aid biliklərə istinad edilməsini daha zəruri hesab edir. Görünür, problemin yalnız bir istiqamətdə araşdırılması əks-əlaqənin, yəni şagirdlərin linqvistik bacarıqlarının formalaşmasında mətn üzərində işin səmərəliliyi məsələsinin diqqətdən yayınmasına şərait yaratmışdır.

Dil dərslərində mətn parçalarından istifadə problemi dilçi-metodist Ə. Əfəndizadənin də tədqiqatlarında öz əksini tapmışdır. "Azərbaycan dili dərslərində həmişə bədii sözün, obrazlı ifadələrin ətri gəlməlidir" fikrini irəli sürməklə şagirdlərin əxlaqi tərbiyəsində folklor materiallarından, söz ustalarının yaradıcılığından gətirilən nümunələrin böyük əhəmiyyət kəsb etdiyini göstərərək yazır: "Azərbaycan dili dərslərində ədəbiyyatımızın görkəmli nümayəndələrinin əsərlərindən parçalar, xüsusən poetik bəndlər, beytlər, misralar səslənərkən, yaxud onlardan ibarət yazılı çalışmalar yerinə yetirilərkən şagirdlər bir daha inanırlar ki, Azərbaycan dili öz lakonikliyi, səslənməsi, ahəngdarlığı və zərifliyi ilə, doğrudan da, qüdrətli və ecazkar bir dildir" [2, s. 17].

Dilimizin tədrisi metodikasının elmi-nəzəri əsaslarını işləyən tədqiqatçılardan biri sayılan alimin bu fikirləri "Azərbaycan dili" dərsliklərində tərcümə materiallarına üstünlük verildiyi hazırki mərhələdə xüsusilə dəyərlidir. O, bədii mətn nümunələrindən səmərəli istifadənin əhəmiyyətini həm də onda görür ki, şagirdlər belə nümunələrlə tanış olduqca "söz ustalarını bir növ təqlid etməyi öyrənir, öz nitqlərini eşitdikləri, rastlaşdıqları nümunələr uyğun nizama salmağa çalışır, yeri gəldikcə, yaradıcı yazılarında istifadə edirlər" [2, s. 17]. Buradan belə məlum olur ki, dövrün metodik baxışlarına müvafiq olaraq, Ə. Əfəndizadə də mətn nümunələrindən istifadə edilməsinə, əsasən, şagirdlərin nitqinin zənginləşdirilməsi baxımından yanaşmışdır.

Şagirdlərin linqvistik bacarıqlarının formalaşması məqsədilə mətn nümunələrindən istifadəyə dair qeydlərə Ə. Əhmədovun tədqiqatlarında rast gəlinir. "Sintaksis üzrə tapşırıqlar və onların aparılmasına dair metodik göstərişlər" adlı əsərində mürəkkəb cümlənin ayrı-ayrı növlərini keçərkən "Verilmiş mətndəki bu və ya digər cümlə üzvünü daha uyğun, fikrin daha aydın və dəqiq olmasına kömək edən sinonimləri ilə əvəz edilməsi" tipindən olan çalışmaların seçilməsini də məqsədəuyğun bilərək yazır: "Bu tipli çalışmaların yerinə yetirilməsi üçün elə rabitəli mətnlər seçilməlidir ki, orada cümlə üzvlərindən bu, ya digəri eyni sintaktik formalarla ifadə edilmiş olsun. Mətndə eyni şəkildə ifadə olunan mübtədalar mətnin məzmununa, buradakı fikirlərin ardıcıllığına və məntiqiliyinə bir ağırlıq gətirməlidir. Bu cəhət şagirdlərin nəzərinə çatdırılır və onlara tapşırılır ki, verilən mətndəki bu qüsuru düzəltsin, həmin mübtədaları və ya digər cümlə üzvlərini sintaktik sinonimlərlə əvəz etsinlər" [4, s. 9].

Müəllifin "redaktə xarakteri daşıyan" çalışmalar kimi xarakterizə etdiyi bu tipli mətnlər, göründüyü kimi, həm də şagirdlərin linqvistik bilik və bacarıqlarının formalaşmasına xidmət edir. Ə.Əhmədovu bir metodist alim kimi səciyyələndirən xüsusiyyətlərdən biri də budur ki, o, Azərbaycan dilinin tədrisi metodikasında, özünün dediyi kimi, IV sinif üçün "Azərbaycan dili" dərsliyindəki bəsit məlumat istisna olunarsa, müəllimlərə kömək məqsədilə mətn haqqında daha ətraflı məlumat verir. Mətni rabitəli nitqin inkişafı kontekstində araşdıran alim "mətn" və "rabitəli nitq" anlayışlarının metodikada sinonim terminlər kimi işlədildiyini qeyd edir və həmin anlayışların məzmununu şərh edir. Alim doğru olaraq bildirir ki, rabitəli nitq həm linqvistik, həm də metodik anlayış kimi işlənir. O, fikrini davam etdirərək yazır: "Linqvistik baxımdan rabitəli nitq müəyyən ölçüsü olan, ifadə etdiyi məzmuna uyğun olaraq müstəqil hissələrinə ayrılan nitq parçasıdır. Daha ümumi şəkildə desək, rabitəli nitq məzmun və forma cəhətdən bir bütövlük təşkil edən ən böyük nitq vahididir" [4, s. 224]. O, eyni zamanda, rabitəli nitqin dil tədrisi metodikasında aşağıdakı üç mənada işləndiyini də qeyd edir:

1) danışılan və yazılan nitq fəaliyyəti, nitq prosesi mənasında;

2) nitq fəaliyyəti, nitq prosesinin məhsulu olan mətn, söyləmə mənasında;

3) nitqi inkişafı ilə bağlı aparılan işlərin əsas istiqamətlərindən birinin adı mənasında [4, s. 224].

Bundan əlavə, tanınmış metodist mətnin dilçilik ədəbiyyatında tədqiqi məsələsinə də toxunaraq, ona cümlədən böyük ünsiyyət vahidi kimi baxıldığını, tərkib hissələri arasında: a) sintaktik bağlılıq və b) məna bütövlüyünün olması cəhətlərinə görə səciyyələndirildiyini göstərir. Onun fikrincə: "Bu cəhətlərin hər ikisi mətndə vəhdətdə götürülür. Belə ki, mətnin hissələri (cümlələr, abzaslar) həm sintaktik cəhətdən birbir ilə bağlanmalı, həm də bir məna bütövlüyündə birləşməlidir. Əks təqdirdə, onu mətn adlandırmaq mümkün deyil. Bu əlaqələrdən biri olmadıqda mətn öz mahiyyətini itirir" [4, s. 225]. Dilçi-metodist mətni təşkil edən hissələr arasındakı zəncirvari və paralel əlaqələri də şərh etməyi unutmur.

Zəncirvari əlaqələrdə mətnin hissələrinin təkrarlanan söz və ya ifadələr vasitəsilə bağlandığını, bu yolla əvvəlki cümlələrdə ifadə olunan fikrin sonrakı cümlə vasitəsilə genişləndiyi və beləliklə, məntiqi-qrammatik düzümün yarandığını qeyd edir.

Paralel əlaqədə isə mətndəki cümlələrin hər birində müstəqil fikrin ifadə olunduğu üzə çıxır və bu fikirlərdən biri sanki digərindən asılı olmur. Bunun zahirən belə olduğu, cümlələrin daxilən möhkəm məna və sintaktik əlaqə əsasında bağlanıldığı göstərilir. Maraqlı cəhət burasındadır ki, müəllif bütün mülahizələrini konkret mətn nümunələri vasitəsilə izah edir. O, həmçi-

nin mətnləri nitq tiplərinə görə nağıletmə, təsvir və mühakimə xarakterli olmaq üzrə qruplaşdırır ki, bu da mətnlə bağlı işlərə metodikada daha çox yer verilməsinə təkan verdi.

Mətn üzərində iş probleminə, daha konkret desək, mətnin linqvistik təhlilinə V.Qurbanov öz baxışlarını belə ifadə edir: "Mətnin linqvistik təhlilini fonem, morfem, söz, söz birləşməsi və s. kimi təsəvvür etmək lazımdır" [11, s. 180]. Mətnin təhlilinə ifadəli oxudan başlamağı məqsədəuyğun hesab edən metodist-alim bu zaman linqvistik təhlillə birgə, ədəbi təhlilə də yer ayrılmasını nəzərdən qaçırmır.

N. Abdullayev şagirdlərin orfoepik və orfoqrafik bacarıqlarının inkişafı məqsədilə mətn üzərində aparılan işləri daha əhəmiyyətli sayır [1, s. 24, 64-66]. Xüsusilə yaradıcı üzündən köçürmə yazılarının orta təhsil mərhələsində tətbiqini daha səmərəli hesab edən alim yazır: "Bu cür tapşırıqları yerinə yetirərkən şagird əvvəlcə mətni oxumalı, nəyi necə edəcəyi haqda fikirləşməli, müvafiq orfoqrafik və ya qrammatik qaydanı xatırlamalı və bundan sonra mətnin üzünü köçürməlidir" [1, s. 65]. Metodist alim bu tipli çalışmaların yerinə yetirilməsində texniki vasitələrdən, məsələn, kodoskoplardan istifadəni daha məqsədəuyğun bilir. Fikrimizcə, kompüter texnologiyasının, ağıllı lövhələrin təlimdə geniş tətbiq edildiyi hazırki mərhələdə bu üsul daha səmərəli görünür.

Azərbaycan dili təlimində mətn nümunələrindən istifadə problemi A. Hacıyevin məqalələrində öz əksini tapmışdır. O, 5-ci sinifdən başlayaraq mətn, onun tərkib hissələri: başlanğıc, əsas məlumat, yekunlaşdırıcı hissə, abzas və onlara daxil olan cümlələri bir-birinə bağlayan vasitələr haqqında biliklərin verilməsini zəruri sayır [6, s. 11]. Xüsusilə köhnəlmiş sözlərin şüurlu mənimsənilməsi prosesində bədii mətn nümunələrindən istifadəyə önəm verən araşdırıcı irəli sürdüyü mülahizələrinə bu şəkildə zəmin hazırlayır: "Söz üzərində məqsədyönlü müşahidələr aparmaq, mətn daxilində onun kəsb etdiyi leksik-semantik xüsusiyyətləri müəyyənləşdirə bilmək, nitq prosesində məna çalarlarından yararlanmaq Azərbaycan dili təlimində şagirdlərin qazanmalı olduqları təlim bacarıqlarından sayılır" [7, s. 207]. Fikirlərini praktik nümunələrlə açıqlayan alim müxtəlif mətn parçaları üzərində şagird müşahidələrini təşkil etməklə onların sözlərin daxili mənasını duymaq qabiliyyətlərini üzə çıxarmağın mümkünlüyünü sübut edir. Müəllifə görə, bu nümunələr üzərində işlədikcə: birincisi, "həm şagirdlərin bədii-estetik duyumları cilalanır, həm kontekst daxilində tanış olmayan sözlərlə işləmək bacarıqları formalaşır"; ikincisi, şagirdlər müstəqil yaradıcılığa alışır və onlar "mətni təhlil etmək, lazımi dil faktını seçib müəyyənləşdirmək kimi əməli bacarıqlara yiyələnirlər" [7, s. 208-209]. Bundan əlavə, o, mətn əsasında tərtib edilmiş test nümunələrinin də təlim üçün səmərəli olduğunu göstərir.

A.Hacıyev mətn üzərində iş prosesində linqvistik bacarıqların yaradılması və inkişafı məsələsinə Azərbaycan dili təliminin mühüm komponenti kimi yanaşır, mətnin cümlə ilə müqayisədə tam fikir bitkinliyinə və bütövlüyünə malik olması faktından çıxış edərək yazır: "Linqvistik bacarıqların aşılanması elə bir prosesdir ki, mətn üzərində müşahidə ilə başlayıb mətnin dil və üslub xüsusiyyətlərinin səciyyələndirilməsi ilə tamamlanmalıdır. Bu proses mətn→cümlə→söz→cümlə→ mətn sxemində həyata keçirilir" [8, s. 36].

Beləliklə, Azərbaycan dili təlimi metodikasında mətn üzərində işlərə mövcud baxışların təhlili göstərir ki, bu məsələdə iki fərqli mövqe özünü göstərir. Bir qrup metodistlər, məsələn: A.Abdullayev, B.Əhmədov, Ə.Əfəndizadə və b. nəzəri məlumatlar əsasında yaradılan linqvistik bilik və bacarıqların mətn üzərində iş prosesi ilə möhkəmləndirilməsini irəli sürürlərsə, bəziləri, xüsusən A. Hacıyev linqvistik bilik və bacarıqların mətn üzərində müşahidə, təhlil, ümumiləşdirmə aparılması yolu ilə formalaşdırılmasını məqsədəuyğun hesab edir.

Problemi daha dərindən araşdırmaq məqsədilə rus metodist-alimlərinin də fikir və mülahizələrini faydalı bilərək, onların son dövrlərdə bu sahədə apardıqları tədqiqatları nəzərdən keçirmək istərdik.

Təhlil göstərir ki, dil təlimində mətndən didaktik vahid kimi istifadə problemi L.P.Fedorenko, T.A.Ladıjenskaya, M.R.Lvov, V.İ.Kapinos, L.İ. Veliçko, N.A. İppolitova, T.M.Paxnova, A.A.Pronina, R.A.Doşinski və b. mütəxəssislərin diqqət mərkəzində olmuşdur. Buradan aydın olur ki, məhz mətn didaktik materialın əsasını təşkil etməklə şagirdlərdə müvafiq bilik, bacarıq və vərdişlərin formalaşmasına zəmin ya-

radır. Mətn həm təlim materialı, həm də öyrənmə vasitəsi rolunda çıxış edir. N.A.İppolitovanın qənaətincə, dil və nitq vahidi olan mətn üzərində iş izahedici-illüstrativ və müşahidə metodları vasitəsilə aparılır. Birinci metoddan istifadə yolu ilə mətnin məzmununu, strukturunu, istifadə olunan anlayışların mahiyyətini dərk etməklə şagirdlər müəllif düşüncələrinin gedişatını qavramağa çalışırlar. Bu üsulun tətbiqi mətndəki yeni fakt və hadisələri müəyyənləşdirməyə, mövzusunu, kompozisiyasını və təşkil olunduğu cümlələrin əlaqələnmə vasitələrini mənimsəməyə imkan yaradır. Bu məqamda mətnin təhlili yeni termin və anlayışların mahiyyətcə izahından sonra aparılır ki, bu da şagirdlərin həmin prosesə idraki fəallıqla qoşulmasını təmin etməyə bilər.

Mətn nümunələri üzərində müşahidə metodundan istifadə yeni anlayışların dərki yolu ilə şagirdin müvafiq mülahizələr söyləməsinə, ümumiləşdirmələr aparmasına, konkret nəticələr əldə etməsinə gətirib çıxarır ki, bu da onun müstəqil fəaliyyətə alışmasına zəmin yaradır. Mətn üzərində müşahidə prosesində dil fakt və hadisələrinin təhlili məqsədyönlü həyata keçirildikdə qazanılan bilik və bacarıqlar daha davamlı və səmərəli olur [9, s. 35-36].

Bu bir həqiqətdir ki, şagird düşündüklərini mətn vasitəsilə ifadə edir. Əslində, mətn həm düşünmə, həm danışma, həm oxu, həm də yazı fəaliyyətinin başlıca vahididir. Mətnsiz bu fəaliyyətlərin heç biri reallaşdırıla bilməz. Mətn həm də şagirdlərin dil qaydalarını şüurlu mənimsəmə materialıdır. Onun üzərində aparılan məqsədyönlü şagird müşahidələri ayrı-ayrı dil fakt və hadisələrinin dərk edilməsinə zəmin yaratmaqla müvafiq linqvistik bacarıqların formalaşmasına xidmət edir. Son dövrlərdə Y.N.Antamoşkina, L.A.Besmenova, L.İ.Veliçko, V.D.Yançenko, E.N.Osipova kimi metodist alimlər mətn üzərində iş prosesində şagirdlərin linqvistik bacarıqlarının inkişaf etdirilməsi məsələləri ilə bağlı tədqiqatlar aparmış və son dərəcə maraqlı nəticələr əldə etmişlər. Belə ki, şagirdlərin linqvistik bilik və bacarıqlarının formalaşması mətn nümunələri üzərində aparılan təlim işi ilə birbaşa əlaqələndirilərək praktik yolla möhkəmləndirilir. Bu zaman şagirdin şifahi və yazılı nitq fəaliyyətinin inkişaf etdirilməsi ön plana çəkilir. Hətta rus dilindən Vahid Dövlət İmtahanının aparılması üçün mətnin kompleks linqvistik təhlilinin təşkil edilməsi imkanları da bir araşdırma obyekti kimi qoyulmaqdadır.

Beləliklə, istər Azərbaycan, istərsə də rus dilinin tədrisi metodikasında aparılan tədqiqatların təhlili göstərir ki, ümumtəhsil məktəb şagirdlərinin linqvistik bacarıqlarının formalaşması və inkişafında mətn üzərində işlərə, bir qayda olaraq, müvafiq nəzəri biliklərin möhkəmləndirilməsi məqsədi ilə yer verilir. Yalnız nadir hallarda mətn üzərində aparılan müşahidələr əsasında dilin daxili quruluşu ilə bağlı şagirdlərin özlərinin gəldikləri ümumiləşdirici fikir və mülahizələr həmin tədqiqatların obyekti olaraq araşdırılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondadır ki, metodist alimlərin dili təlimində mətn üzərində işin təşkili ilə bağlı fikir və mülahizələri təhlilə cəlb edilməklə sistemləşdirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti:** təlim prosesində mətn üzərində aparılan linqvistik işlərin məzmununa aydınlıq gətirilməklə təcrübədə tətbiqinin imkan və yolları haqqında aydın təsəvvür yaradılmışdır.

## Ədəbiyyat

1. Abdullayev N.Ə. Orfoepiya və orfoqrafiya təlimi məsələləri. Bakı: APİ-nin nəşri, 1985.
2. Əfəndizadə Ə. Azərbaycan dili təliminin məzmun problemləri // Azərbaycan dili və ədəbiyyat tədrisi, 1987, № 1
3. Əhmədov B. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Mütərcim, 2007.
4. Əhmədov Ə.M. Azərbaycan dili tədrisinin bəzi məsələləri. Bakı: Təhsil, 2007.
5. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər (psixopedaqoji araşdırmalar). Bakı: Adiloğlu, 2001.
6. Hacıyev A. Azərbaycan dilindən sistematik kursun sintaksis əsasda tədrisinə dair // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2000, № 4
7. Hacıyev A. Köhnəlmiş sözlərin mənimsədilməsində bədii mətn nümunələrindən istifadənin səmərəliliyi // ARTPİ-nin Elmi əsərləri, 2008, № 4
8. Hacıyev A. Ümumtəhsil məktəblərində Azərbaycan dili təliminin məzmunca işlənilməsi // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2014, № 1

9. Ипполитова Н.А. Текст в системе обучения русскому языку в школе: Учеб. Пособие для студентов пед. вузов. М.: Флинта, 1998.
10.Krouford A., Vendi Soul E., Metyu S., Makinster C. Düşünən sinif üçün öyrətmə və öyrənmə üsulları. Tənqidi təfəkkürün inkişafı üçün mütaliə və yazı layihəsi. Bakı: Oskar, 2005.
11. Qurbanov V.T. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Müəllim, 2014.
12.Mehrabov A. O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
13. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 2007.
14. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1953.
15.Veysova Z.A. Fəal/interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.

**E-mail**: aygun_zaman@mail.ru
**Rəyçi:** *ped.ü.fəls.dok. dos.***A.X. Hacıyev**
**Redaksiyaya daxil olub:** 16.10.2018